AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyasi.com

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№ 31 (1491), 21 - 27 sentyabr 2021-ci il*

*Qəzet 2001-ci ildən çıxır.*



## Gənclər və idman naziri Fərid Qayıbov idman federasiyaları və klublarda görüşlər keçirib

Gənclər və idman naziri Fərid Qayıbov Azərbaycan Üzgüçülük Federasiyasının prezidenti Xanlar Fətiyev və Bakı Su İdmanı Sarayının direktoru Elçin Həsənov ilə görüşüb. Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, Bakı Su İdmanı Sarayında keçirilən görüşdə komandaların hazırlıq prosesi, federasiyanın fəaliyyəti, görülən işlər, çətinliklər, qarşıda duran vəzifələr barədə nazirə məlumat verilib, fikir mübadiləsi aparılıb.

Sonra nazir Fərid Qayıbov Bakı Su İdmanı Sarayının fəaliyyəti və imkanları ilə yaxından tanış olub.

*(ardı 2-ci səhifədə)*

## Bədii gimnastlarımız Monteneqroda 6 medal qazanıblar

Monteneqronun Budva şəhərində keçirilmiş bədii gimnastika üzrə “Wild Beauty Cup” adlı beynəlxalq turnirdə Azərbaycan komandası 6 medal qazanıb. Yarışda fəxri kürsünün hər üç pilləsində yer alan Kamilla Seyidzadə komanda hesabına ən çox medal yazdıran gimnast olub. Belə ki, o, lentlə icra etdiyi çıxışı ilə bütün rəqiblərini üstələyərək qızıl medal qazanıb. Gürzlərlə gümüş, çoxnövçülük və halqa ilə yerinə yetirdiyi proqrama görə istedadlı gimnastımız bürünc medala sahib olub.

K.Seyidzadə daha bir bürünc medalı isə Alina Gözəlova ilə birlikdə komanda hesabında əldə edib. A.Gözəlova öz növbəsində topla nümayiş etdirdiyi çıxışına görə də bürünc mükafat əldə edib.

Yarışda iştirak edən digər təmsilçimiz Fəxriyyə Əliyeva ən yaxşı nəticəsini topla nümayiş etdirərək beşinci yerdə qərarlaşıb.



## Zaqreb Qran-Prisində 2 cüdoçumuz yarışacaq

Sentyabrın 24-də Xorvatiyanın paytaxtı Zaqrebdə cüdo üzrə Qran-Pri turniri start götürəcək. Bu nüfuzlu turnirdə Azərbaycanı 2 cüdoçu təmsil edəcək. Belə ki, Hidayət Heydərov (73 kq) və Məmmədəli Mehdiyev (90 kq) medallar uğrunda mübarizə aparacaqlar.

Üç gün davam edəcək turnirdə 37 ölkədən 270-dən çox idmançı qüvvəsini sınayacaq.




## Pekin-2022-nin şüarı müəyyənləşdi

2022-ci il fevralın 4-dən 20-dək Çinin paytaxtı Pekində keçiriləcək Qış Olimpiya Oyunlarının şüarı açıqlanıb. Şüar koronavirus pandemiyasına qlobal reaksiya kontekstində seçilib və “Ümumi gələcək naminə birlikdə” adlanır. Bundan əlavə, Olimpiya məşəlinin alovlandırılma mərasimi pandemiya səbəbindən azarkeşsiz olacaq. Tədbir oktyabrın 18-də Yunanıstandakı tarixi Olimpiya bölgəsində gerçəkləşəcək.

BEIJING 2022

## *Formula 1 üzrə Azərbaycan Qran-Prisinin ilkin tarixi açıqlandı*

Formula 1-də 2022-ci il mövsümünün ilkin təqvimi açıqlanıb. Gələn il 23 yarışın keçirilməsi planlaşdırılır. Azərbaycan Qran-Prisinin də ilkin tarixi müəyyənləşib. Yarış iyunun 12-də və ya 19-da təşkil olunacaq. Həmin iki tarixdə Kanada və Azərbaycan yarışa ev sahibliyi edəcək. Bu ölkələrdən hansının iyunun 12-də, hansının 19-da pilotları qonaq edəcəyi hələ dəqiqləşməyib. Bunadək isə 7 mərhələ keçiriləcək.



*İdman dünyasındakı maraqlı və operativ xəbərləri gündəlik*

**olimpiyadunyasi.com** *onlayn qəzetindən oxuyun*




## Rafiq Hüseynov:

“Bu medal üçün illərdir çalışırdım”

Səh. 3

## Tokio-2020-də qeydə alınan rekordlar və “ilk”lər

Səh. 4



# Gənclər və idman naziri Fərid Qayıbov idman federasiyaları və klublarda görüşlər keçirib

*(əvvəli 1-ci səhifədə)*

Gənclər və idman naziri Fərid Qayıbov Azərbaycan Cüdo Federasiyasının fəaliyyəti və Bakı Olimpiya Stadionu ilə tanış olub.

Federasiya ilə tanışlıq zamanı nazir idmançıların məşq prosesini izləyib, qadın və kişi cüdoçularla görüşərək söhbətlər aparıb, onlar üçün yaradılmış şəraitlə tanış olub.

Azərbaycan Cüdo Federasiyasının vitse-prezidentləri Sadıq Sadıqov, Elnur Məmmədli və baş katibi Elmar Babanlı nazirə federasiyanın fəaliyyəti, yerli və beynəlxalq səviyyəli yarışlara hazırlıq, gənc idmançılarla işin qurulması, çətinliklər, federasiyanın gələcək planları barədə məlumat veriblər. Qeyd olunan məsələlər ətrafında fikir mübadilələri aparılıb.

Daha sonra nazir F.Qayıbov Bakı Olimpiya Stadionuna baxış keçirib. Stadionun direktoru Cavid Qarayev naziri stadionla tanış edib, yaxın vaxtlarda təşkil ediləcək tədbirlərə hazırlığın gedişi barədə məlumat verib.

* * *

Sentyabrın 15-də Gənclər və İdman Nazirliyində ölkədə fəaliyyət göstərən gənclər təşkilatlarının bir qrupu ilə gənclər və idman naziri Fərid Qayıbovun görüşü keçirilib.

Görüş zamanı çıxış edən gənclər nazirə təşkilatlarının fəaliyyəti, həyata keçirilən layihələr, qarşılaşdıqları çətinliklər, gələcək planları barədə məlumatlar veriblər.

Bundan başqa təşkilatların fəaliyyətinin tənzimlənməsi üçün qanunvericilik məsələləri, beynəlxalq əməkdaşlıq, gənclərin inkişafında təşkilatların rolu, təşkilatların sosial mediada fəaliyyəti, gənclərin rəqəmsal bacarıqlarının inkişafı, könüllülük fəaliyyəti, biznes qurumları ilə əməkdaşlıq və sair məsələlər ətrafında müzakirələr aparılıb.

Gənclər təşkilatlarının rəhbərləri maraqlı və səmimi görüş üçün nazir Fərid Qayıbova minnətdarlıqlarını bildiriblər.

Daha sonra nazir Fərid Qayıbov bu görüşlərin davamlı olacağını və nazirliklə gənclər təşkilatlarının əməkdaşlığının daha da genişlənəcəyini bildirib.

* * *

Gənclər və idman naziri Fərid Qayıbov Vüqar Həşimov Şahmat Akademiyası ilə tanış olub. F.Qayıbov şahmatçılarla görüşərək onların hazırlığı ilə maraqlanıb, akademiyanın yetirmələrinin qazandıqları nailiyyətlərin nümayiş etdirildiyi şahmat muzeyinə baxıb.

Daha sonra nazir tanınmış şahmatçının ailə üzvləri ilə görüşüb. Akademiyanın yaranması, fəaliyyəti, gələcək planları və uğurları barədə mərhum qrossmeysterin atası Qasım Həşimov tərəfindən ətraflı məlumat verilib, çətinliklər barədə fikir mübadiləsi aparılıb.

Sonda nazir Fərid Qayıbov Şimali Makedoniyada keçiriləcək şahmat üzrə klublararası Avropa



kubokunda Azərbaycanın yeganə təmsilçisi - Vüqar Həşimov Şahmat Akademiyasının komandasına bu uğurlar arzulayıb. Nazir akademiyanın xatirə kitabına ürək sözlərini yazıb.

Vüqar Həşimov Şahmat Akademiyası ölkəmizdə Beynəlxalq Şahmat Federasiyası (FİDE) tərəfindən qeydiyyata alınmış ilk şahmat akademiyasıdır.

## *Nağı Səfərov Avropa Taekvondo Birliyinin İdarə Heyətinə üzv seçilib*

Azərbaycan Taekvondo Federasiyasının (ATF) vitse-prezidenti Nağı Səfərova növbəti dəfə etimad göstərilib.

ATF-nin mətbuat xidmətindən verilən məlumata görə, o, yenidən Avropa Taekvondo Birliyinin (ATB) İdarə Heyətinə üzv seçilib.

İstanbulda baş tutan ATB-in növbəti Baş Assambleyasında qurumun prezidenti, vitse-prezidentləri və İdarə Heyəti yenidən seçilib. Qeyd edək ki, İdarə Heyətinin üzvü 14 nəfərdən ibarət olur.

Assambleyanın yekununa əsasən, növbəti dörd il Sakis



Praqalos ATB-in prezidenti vəzifəsində fəaliyyətini davam etdirəcək. Antonino Barbarino isə baş katib vəzifəsinə təyin olunub.

# *Marneulidə inşa edilən idman kompleksinin açılışı olub*

Gürcüstanda azərbaycanlıların yığcam yaşadıqları Marneuli bələdiyyəsinin 11 minə yaxın əhalisi olan Qızılhacılı kəndində beynəlxalq standartlara uyğun, yeni texnologiyalar əsasında tikilmiş idman kompleksinin açılış mərasimi keçirilib. Mərasimdə Gürcüstanın Baş naziri İrakli Qaribaşvili, SOCAR-ın prezidenti Rövnəq Abdullayev, Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev, Kvemo-Kartli qubernatoru Şota Rexviaşvili, Gürcüstan parlamentinin deputatları Savalan Mirzəyev, Zaur Dərğallı və digər rəsmi şəxslər iştirak ediblər.



Baş nazir İrakli Qaribaşvili mərasimdə çıxış edərək Azərbaycan-Gürcüstan dostluğundan danışıb. Bildirib ki, strateji tərəfdaş olan Gürcüstanla Azərbaycan arasındakı münasibətlər digər ölkələr üçün də nümunədir. Hökumət başçısı Azərbaycanı Gürcüstanın dostu və qardaşı adlandırıb.

Bu cür layihələrin həyata keçirilməsini yüksək qiymətləndirən İ.Qaribaşvili Gürcüstana göstərdiyi hərtərəfli dəstəyə görə Azərbaycan dövlətinə və şəxsən Prezident İlham Əliyevə, eləcə də SOCAR rəhbərliyinə minnətdarlıq edib.

SOCAR-ın prezidenti Rövnəq Abdullayev çıxışında deyib ki, Prezident ilham Əliyev dost və qardaş Gürcüstanla münasibətlərin inkişafına hər zaman böyük diqqət göstərib. Bu ölkədə yaşayan soydaşlarımızın sosial problemlərinin həllində Gürcüstan dövlətinə kömək göstərmək barədə SOCAR rəhbərliyinə konkret tapşırıqlar verib.

Onun sözlərinə görə, idman kompleksinin, eləcə də digər sosial obyektlərin tikintisi, ölkənin qazlaşdırılması sahəsinə ayrılan investisiyalar bunun bariz nümunəsidir.

Bildirilib ki, SOCAR-ın Gürcüstanda həyata keçirdiyi xeyriyyə layihələri çərçivəsində inşa olunan idman kompleksində basketbol, voleybol və futzal üzrə beynəlxalq yarışların keçirilməsi üçün də imkan yaradılıb. Müasir istilik və soyutma sistemləri, yanğın əleyhinə vasitələr ilə təmin olunmuş kompleksdə 150 tamaşaçı yeri var.

Binanın ətrafı abadlaşdırılıb, kompleksin yaxınlığındakı futbol stadionu yenidən qurulub, buraya yeni sintetik qazon döşənib, metal çəpərlər, tribunalar, işıqlandırma sistemi təmir edilib, tamaşaçılar üçün müasir oturacaqlar quraşdırılıb.

Sonra Gürcüstanın Baş naziri İrakli Qaribaşvili, SOCAR prezidenti Rövnəq Abdullayev və digər rəsmi şəxslər idman kompleksində yaradılan şəraitlə tanış olublar.

# Tədqiqatçı alimin yeni kitabı işıq üzü görüb

Pedaqogika üzrə elmlər doktoru, professor Dilqəm Quliyevin Milli Olimpiya Komitəsinin aparıcı məsləhətçisi, "Olimpiya dünyası" qəzetinin baş redaktoru, Əməkdar jurnalist Murad Fərzəliyevin redaktorluğu ilə "Akademiyanın idman ulduzları"adlı yeni kitabı işıq üzü görüb.




Oxuculara təqdim olunan bu kitab Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının 90 illik yubileyinə həsr edilmiş ensiklopedik məlumatlar toplusu olan kitabda idman akademiyasının tələbə və məzunlarının Olimpiya Oyunlarında, dünya, Avropa çempionatlarında, I Avropa Oyunlarında, IV İslam Həmrəyliyi Oyunlarında və beynəlxalq yarışlarda göstərdikləri nailiyyətlər konkret faktlarla öz əksini tapmışdır. Nəzərə almaq lazımdır ki, kitab Akademiyanın idman tarixini belə geniş əhatə edən ilk nəşrdir. Bu baxımdan kitab idman ictimaiyyəti və eləcə də bu sahədə təhsil alan tələbələr üçün faydalı olacaqdır.

Ensiklopedik kitab orta və ali məktəb müəllimlərinin, doktorantların, bakalavrların, magistrlərin, şagird və tələbələrin, bədən tərbiyəsi və idman sahəsində çalışan mütəxəssislərin, habelə geniş oxucu kütləsinin istifadəsi üçün nəzərdə tutulmuşdur.

## Paris-2024 Paralimpiya Oyunlarına hazırlıqla əlaqədar qarşıda duran vəzifələr geniş müzakirə edilib

Azərbaycan Milli Paralimpiya Komitəsində (AMPK) yay Paralimpiya idman növləri üzrə baş məşqçilərlə iclas keçirilib. AMPK-dan "Olimpiya dünyası" qəzetinə verilən məlumata görə, komitənin baş katibi Kamal Məmmədov ilk növbədə Tokio-2020 XVI Yay Paralimpiya Oyunlarında uğurlu nəticə göstərmiş idmançıların baş məşqçilərinə qurumun rəhbərliyi adından təbriklərini və minnətdarlığını ifadə edib. Baş katib bundan sonra da onların fəaliyyətindən yüksək nəticələr gözlənildiyini vurğulayıb.

K.Məmmədov bildirib ki, Tokio-2020-də komandamızın uğurlu nəticələr əldə etməsinə baxmayaraq, güllə atıcılığı, pauerliftinq, taekvondo, eləcə də lisenziya gözləntisi olan kamandan oxatma və digər idman növlərinin baş məşqçiləri növbəti yarışlara daha ciddi hazırlaşmalı və qarşılarına qoyulan vəzifələri yerinə yetirməlidirlər.

İclasda 2024-cü ildə Parisdə keçiriləcək XVII Yay Paralimpiya Oyunlarına hazırlıqla əlaqədar qarşıda duran vəzifələr geniş müzakirə edilib. Eyni zamanda, baş məşqçilərə yeni idmançıların, o cümlədən Qarabağ qazilərinin cəlb edilməsi, regionlarda fəaliyyətin gücləndirilməsinin vacibliyi bildirilib. Həmçinin baş məşqçilərə tapşırılıb ki, on gün müddətində Paris-2024-ə hazırlıq dövrü üçün fəaliyyət proqramı hazırlanıb komitəyə təqdim edilsin.

İclasın nəticəsi olaraq, AMPK-nın prezidenti İlqar Rəhimova Paris-2024 XVII Yay Paralimpiya Oyunları ilə əlaqədar hər idman növü üzrə baş məşqçilərin təyin edilməsi ilə bağlı təqdimat verilib.

— Olimpiya mükafatçılarımız —

# Rafiq Hüseynov:
## “Bu medal üçün illərdir çalışırdım”

***O, 2016-cı ildə baş verən bəzi hadisələrə görə idman karyerasını bitirmək istəyirdi. Bəzən küskünlüklər, bəzən isə zədələr onun karyerasına psixoloji təsir etsə də, lakin o, bu mübarizədən çəkinmədi. Son ana qədər mübarizəsini davam etdirən idmançımız bunun bəhrəsini Tokio-2020 XXXII Yay Olimpiya Oyunlarında gördü. Söhbət Tokio-2020-nin güləş yarışlarında komandamıza bürünc medal qazandıran Rafiq Hüseynovdan gedir. Bu günlərdə yunan-Roma güləşçimizlə əlaqə saxladıq. Müsahibimiz ona ünvanlanan sualları səmimi cavablandırdı.***

***- Rafiq, istərdik söhbətimizə idmana gəlişinizdən və ilk addımlardan başlayaq.***

- İdmana gəlişim atamın məni ümumi fiziki hazırlıq üzrə məşqlərə yazdırması ilə başlayıb. Həmin vaxt kiçik yaş qrupunda yer aldığım üçün yalnız fiziki hazırlıqla məşğul olur, müxtəlif oyunlar oynayırdım. Lakin zamanla artıq sırf güləş idman növü ilə məşğul olmağa başladım. Elə ilk günlərdən bu idman növü mənə çox maraqlı və doğma gəldi.

***- Komandamıza Tokio-2020-nin güləş yarışlarında ilk medalı Siz qazandırdınız. İstərdik bir qədər sizinlə birgə həmin anlara yenidən qayıdaq. Həmin görüşləri necə xatırlayırsınız?***

- Düzdür, güləş yarışlarında ilk medalı millimizin aktivinə mən yazdırdım. Amma etiraf edim ki, həmin anlar mənim üçün çox ağır və kədərli idi. Olimpiya Oyunlarına qızıl medal üçün yollansam da, təəssüf ki, ikinci görüşdə Qırğızıstan təmsilçisinə məğlub oldum. Artıq hər şeyin bitdiyini düşünürdüm. Buna baxmayaraq, Qırğızıstan güləşçisi qalib gəldi və mənim üçün təsəlliverici görüşlərdə iştirak etmək imkanı yarandı. Ermənistan təmsilçisinə qalib gəldikdən sonra isə sevincimin həddi-hüdudu yox idi. Çünki bu medal üçün illərdir çalışırdım.

***- Sizə qədər artıq Azərbaycan komandasının bir neçə üzvü Olimpiadanı medalsız başa vurmuşdu. Bu çıxışınıza hər hansısa bir təsir göstərmədi ki?***

- Xeyr. Düşünürəm ki, hər kəs yarışlara fərqli hazırlaşır. Buna görə də, hər bir idmançının fərdi problemləri ola bilər. Lakin Tokio ilə Bakı arasında 6 saatlıq fərq olduğu üçün bizi birləşdirən yeganə amil yuxu problemi idi.

***- İstərdik ki, bir qədər də həlledici görüşdə qarşılaşdığınız erməni idmançısı ilə keçən görüş barədə danışasınız. Əvvəlcədən özünüzü bu görüşə necə hazırlamışdınız?***

- Əvvəlcə qeyd edim ki, mənim üçün həlledici görüşün kiminlə olması heç vaxt önəm daşımayıb. Çünki mənim yarışlarda iştirak etməyimin əsas məqsədi medal qazanmaq olub. Düzdür, düşmən ölkənin idmançısı ilə qarşılaşmaq mənə ikiqat çətin və məsuliyyətli olur. Belə ki, nəticədə xalqa kimə məğlub olub və ya qalib gəldiyini açıqlamaq məcburiyyətində olursan. Bu baxımdan məğlub olacağım təqdirdə xalqıma nə cavab verəcəyimi düşünürdüm. Düzdür, mən rəqiblərin dininə, mənsubiyyətinə və millətinə ayırmağın heç vaxt tərəfdarı olmamışam. Çünki idmanda həm qələbə, həm də məğlubiyyət var. Bu gün qalib gəlirəmsə, sabah məğlub da ola bilərəm. Yəni sabah eyni münasibət insanın özünə qarşı olarsa, bu, gələcəkdə həqiqətən də, ciddi psixoloji problemlərlə nəticələnə bilər. Lakin şükür Allaha ki,



qələbə qazandım və xalqımızın qarşısına qalib idmançı kimi çıxdım. Çox sevinirəm ki, xalqımıza ikiqat qələbə sevincini bəxş etdim. Bu da mənim üçün əlavə stimuldur. Lakin mənim hədəfim başqa idi. Düşünürəm ki, hədəfimə çatmağa nail oldum.

**“Erməni idmançılarının məğlub olduqdan sonra heç vaxt bizimlə üz-üzə gəlməyə cəsarəti olmur”**

***- Görüş başa çatandan sonra məğlub etdiyiniz erməni idmançısı ilə üz-üzə gəldinizmi?***

- Onu bildirim ki, erməni idmançılarının məğlub olduqdan sonra heç vaxt bizimlə üz-üzə gəlməyə cəsarəti olmur. Lakin düşünürəm ki, məğlub olan hər bir idmançı kimi onlar da məyus olur.

***- Təbii ki, qeyd etdiyiniz kimi, bu idmandır, qələbə də olur, məğlubiyyət də. Heç məğlub olmaq riskini göz önünə alıb, bu barədə düşünmüşdünüz?***

- Əlbəttə, ki, heç bir idmançı məğlub olmaq istəmir. Lakin hər bir halda bütün idmançılar məğlub olmaq riskini gözə alıb yarışa yollanırlar. Yarışdan sonra məğlub olacağım təqdirdə məni nələrin gözləyəcəyini dəfələrlə təsəvvür etməyə çalışırdım. Yəni illərdir məşq edib yarışdan əliboş qayıdıb təəssüf və psixoloji cəhətdən gərgin bir vəziyyətdə olacağımı düşünürdüm. Lakin, yarışlardan əvvəl məğlubiyyət barədə deyil, qələbə barədə düşünməyin daha düzgün olduğunu hesab edirəm.



***- Qalib gəldikdən sonra ilk sevinc təəssüratlarınızı kiminlə bölüşdünüz?***

- Sevinc hisslərimi ilk olaraq məşqçilər heyəti ilə bölüşdüm. Daha sonra məni mətbuat işçiləri qarşıladı və öz təbriklərini bildirdilər. Növbəti təbrik edənlər isə soyunub-geyinmə otağında məni gözləyən komanda yoldaşlarım oldu. Sonra isə dərhal valideynlərimə, yaxınlarıma zəng edib, sevinc hisslərimi onlarla bölüşdüm. Təbii ki,





bundan sonra məni təbrik etmək üçün tanışlarım və hətta tanımadığım insanlar əlaqə saxlayırdılar.

***- Siz həm də Mərkəzi Ordu İdman Klubunun zabitisiniz. İki işi bir arada görmək, yəni həm idmançı kimi, həm də zabit kimi çalışmağın hansı çətinlikləri var?***

- 2015-ci ildə hərbçilərin Olimpiya Oyunlarından sonra cənab nazir mənə rütbə verdi. Hazırda da Mərkəzi Ordu Klubunun zabitiyəm. Əlbəttə, iki işi eyni zamanda aparmaq bir qədər çətindir. Hazırda zabit kimi çalışmağıma baxmayaraq, bəzən təlim-məşq toplanışları olan zaman cənab nazirin Sərəncamı ilə işdən azad olunub, rahat şəkildə məşqlərə qatılıram. Buna görə də, ilk növbədə cənab nazirə və qərargah rəisinə təşəkkürümü bildirirəm ki, mənə daim dəstək olurlar. Bu baxımdan hələ ki, hər iki vəzifəmi icra etməkdə çətinlik çəkmirəm.

***- Atanız Radik Hüseynovun uğurlu karyeranızda əvəzsiz rolunun olması bizə məlumdur. İstərdik ki, bir qədər də atanızın peşəkar karyeranızdakı fədakarlıqlarından danışasınız.***

- Təbii ki, bu nəticəni əldə etməyimin əsas səbəbkarı atamdır. Belə ki, o, həm məşqçi karyerasının, həm də həyatının böyük hissəsini mənə həsr edib. Bu baxımdan da, ilk olaraq üzərimdə atamın əvəzsiz rolu var. Daha sonra isə anam, həyat yoldaşım və övladlarımın duaları mənə uğur qazanmağa kömək olub. Vurğulayım ki, ən ağır və ən xoş günlərimdə ailəm daim yanımda olaraq mənə dəstək olub. Atam isə mənə həm ata, həm də məşqçi kimi həddsiz kömək olub. Qeyd edim ki, atam həmçinin məşhur idmançılar Kamran Məmmədov, Hacıxan Mustafayev və digərlərinə xüsusi qayğı və peşəkarlıqla yanaşaraq, onlara məşqçilik edib.

***- Əvvəlki müsahibələrinizdə hər zaman qeyd etmisiniz ki, atanız Sizdən narazı qalıb. Bu dəfə necə, Olimpiya medalını qazanmaqla atanızı razı sala bildinizmi?***

- Əlbəttə ki, hər bir idmançı Olimpiya Oyunlarının qızıl medalını qazanmaq istəyir. Lakin fərz etsək ki, növbəti olimpiadalarda mənə medal qazanmaq qismət olmayacaq, bu zaman deyə bilərəm ki, həqiqətən də, bu arzu həyata keçib. Amma təəssüf ki, atam bu Oyunlarda məndən daha çox narazılığını bildirib. Buna səbəb isə istədiyim səviyyədə güləş nümayiş etdirmədiyimdir. Təbii ki, buna yuxusuzluq, gərginlik, ilk dəfə Olimpiya Oyunlarında iştirak etmək həyəcanı da mane olurdu. Atam olimpiadadakı çıxışımdan məndən qat-qat narazıdır. Sadəcə, hazırda qazanılan bürünc medalın təəssüratı altında olduğumuz üçün hələ ki, qüsurlarımla bağlı iradlarını bildirmir.

***- Qızıl medal hər zaman tarixdə qalır. Sizin də bu baxımdan təəssüf hissinizi başa düşmək olar. Təbrikləri qəbul edərkən hansı hissləri keçirirsiniz?***

- Təbii ki, Oyunlardan sonra aldığım təbriklərin sayı-hesabı yox idi. Tanışlardan əlavə xeyli sayda azarkeşlər məni sosial şəbəkə vasitəsi ilə təbrik edirdilər. Hətta bir çoxlarına vaxt tapıb təşəkkür belə edə bilmirdim. Yəni bu fiziki cəhətdən alınmırdı. Bəzən insanlar təbrik edəndə “canın sağ olsun, bürünc medal da böyük uğurdur” deyirlər. Amma idmandan uzaq olan insanların “canın sağ olsun, təbrik edirəm” sözü hər zaman sevmədiyim ifadə olub. Belə insanlar yarışda yalnız qızıl medal olmalıdır, - deyə düşünürlər. Düzünü deyim ki, onları da bir qədər anlayıram. Lakin idman sahəsinə yaxın olan insanların belə fikirlər səsləndirməsi həqiqətən də, insana çox pis təsir edir. Bununla belə, onların da fikirlərinə hörmətlə yanaşır və təbriklərini qəbul edirəm.

***- Bildiyimizə görə, 2016-cı ildə idmandan uzaqlaşmaq istəmisiniz. Buna səbəb nə idi?***

- Həmin vaxtı milli komandada İrandan olan məqşçilər çalışırdılar. Onların qeyri-peşəkar olması səbəbi ilə mən və bir neçə güləşçi idmandan uzaqlaşmaq istəyirdik. Lakin hər zaman olduğu kimi, ən çətin anlarımda yenə də ailəm mənə böyük dəstək oldu. Aldığım dəstəkdən ruhlanaraq, yenidən özümdə güc tapıb yoluma davam etdim. Tezliklə isə iranlı məşqçilər millimizdən uzaqlaşdırıldı. Bundan sonra yenidən bütün gücüm ilə məşqlərə başladım. 2017-ci ildə isə zədələndiyim dövrdə daim yanımda olan valideynlərim, qardaşlarım, ailəm və dostlarım mənə həddsiz dəstək oldular və ruhlandırdılar. Təbii ki, belə güclü dəstəyi hiss edəndə insan etdiyinin beş qatını həyata keçirmək istəyir. Bu kimi hallar karyeram ərzində baş versə də, hər zaman çalışmışam ki, bundan bir nəticə çıxarım və yeni stimulla məşqlərimə geri dönüm.

***- Qarşıdakı planlarınız nədən ibarətdir?***

- Bildiyiniz kimi, gələn ay Norveçin paytaxtı Osloda güləş üzrə dünya çempionatı keçiriləcək. Hazırda əsas məqsədimiz bu çempionata hazırlaşmaqdır. Təbii ki, 2024-cü ildə təşkil olunacaq Yay Olimpiya Oyunlarında da iştirak etməyi də çox istəyərəm. Lakin məlumdur ki, bu yalnız istəklə olmur. Buna görə də, çalışacağam ki, Olimpiya Oyunlarına kimi nailiyyətlərimi artırım və oyunlara tam hazır olum. Dünya arenasında çox ciddi rəqabətin olması məşqlərə daha da məsuliyyətli yanaşmağı tələb edir. Hazırda da məşqlərim tam sürətlə davam edir və dünya çempionatında yüksək nəticə əldə edəcəyimə inanıram.

*Azər Əlizadə,*
*Türkay Niftəliyeva*

# Tokio-2020-də qeydə alınan rekordlar və "ilk"lər

**— Bilirsinizmi? —**

***Dünyanın ən güclü idmançıları XXXII Yay Olimpiya Oyunlarında növbəti sınaqdan keçdilər. Bəşəriyyəti bürüyən pandemiya Oyunları bir il geriyə atsa da, idmançılar bu sınaqdan da uğurla keçdilər. Böyük problemlərlə təşkil olunan Tokio-2020 Yay Olimpiya Oyunlarında maraqlı nəticələr qeydə alındı. Oyunlar zamanı atletlərin göstərdiyi nəticələri diqqət mərkəzində saxlayan "Olimpiya dünyası"qəzeti bu sayında rekordlarla bağlı maraqlı məlumatları təqdim edir.***

## Yayımdan əldə olunan ən yüksək qazanc

Tokio-2020 Yay Olimpiya Oyunlarını ekran qarşısında təxminən 4 milyard tamaşaçı izləyib. Məlum səbəblərə görə Oyunların keçirildiyi arenalara azarkeş buraxılmayıb. Bu göstərici Olimpiada tarixində yeni bir rekord hesab olunur. Beynəlxalq Olimpiya Komitəsinin Oyunlarla bağlı yaydığı hesabatlarda bildirilir ki, mötəbər yarışın yayımından 1 milyard ABŞ dolları əldə edilib.

## Cəmi bir ölkə yoluxmadan "qorxub", Tokioya gəlmədi

XXXII Yay Olimpiya Oyunlarında 206 ölkəni təmsil edən yığma komanda mübarizə apardı. 5 il əvvəl təşkil olunan Rio olimpiadasında isə bu say 207-yə bərabər idi. Cəmi 1 ölkə var idi ki, onlar Oyunlarda iştirak etməkdən imtina etdilər. Söhbət KXDR (Koreya Xalq Demokratik Respublikası) yığmasından gedir. Səbəb kimi pandemiyanı əsas götürən şimali koreyalılar Tokio-2020-dən əvvəl BOK-a bildirdilər ki, onlar idmançılarının COVİD-19-a yoluxmasından narahat olaraq, bu addımı atıblar.

**1992-2020 Olimpiya Oyunlarında iştirak edən ölkələrin sayı**




## Yaponiyalılar Rio-de Janeyroya çata bilmədi

İndiyə qədər ən çox iştirakçısı olan olimpiada 5 il əvvəl Rio-de Janeyroda keçirilib. Belə ki, ilk dəfə Cənubi Amerika qitəsində keçirilən Yay Olimpiya Oyunlarında 11238 idmançı qüvvəsini sınamışdı. Onlardan 6179 nəfəri kişi, 5059-u isə qadın idmançı olmuşdu. Pandemiya səbəbindən bir il sonra keçirilən Tokio-2020-də bu rekord dəyişmədi. Karantin qaydalarını əsas götürən ölkələrdən əksər idmançılar olimpiadaya gəlmədilər. Nəticədə Yaponiya paytaxtına Olimpiya mükafatı üçün yollanan idmançıların sayı 11037 (5651 kişi, 5386 qadın) nəfər oldu. Qeyd etdiyimiz kimi, Olimpiya oyunlarına KXDR yığması məlum səbəbə görə gəlməmişdi. Əgər onlar da Tokio-2020-yə qoşulsaydılar, yəqin ki, rekord yenilənə bilərdi.

## Olimpiya Oyunlarında iştirak etməyən ulduzlar

Tokio-2020 Yay Olimpiya Oyunlarında dünyanın tanınmış idmançılarının əksəriyyəti müəyyən səbəblərə görə bu Oyunlarda iştirak etmədilər.



Nəticədə olimpiada geniş tamaşaçı auditoriyasından kənarda qaldı. Məsələn futbolda Lionel Messi və Neymar kimi futbolçular iştirak etmədilər. Bundan başqa "Liverpul"un misirli futbolçusu olimpiadada iştirak etmək arzusu ilə "alışıb yansa da", klub rəhbərliyi onun yığma komandada iştirakına icazə vermədi. Basketbolda "Milouki" klubunun yunanıstanlı ulduzu Yanni Adetokumbo NBA-nın oyunlarına görə təsnifat mərhələsində iştirak etmədi. NBA-nın digər bir ulduzu Lebron Ceyms də oyunlardan kənarda qalıb. "Leykers"də çıxış edən basketbolçu "Kosmik cem 2" cizgi filmində baş rola görə Yaponiya paytaxtına getmədi. Tennis dünyasının əsas simaları Rafael Nadal, Roje Federer, Selena Uliyams müxtəlif illərdə Olimpiya çempionu olduqlarını bildirərək, olimpiadanı digər nüfuzlu turnirərlə əvəz etdilər. İtaliyalı qaçışçı Mo Fara



4 qat Olimpiya çempionu olmasına baxmayaraq, Tokio-2020-yə vəsiqə verən yarışda təsnifat normasını yerinə yetirə bilmədi. 3 qat Olimpiya çempionu olan çinli üzgüçü Sun Yan antidopinq qaydalarını ciddi şəkildə pozduğu üçün oyunlardan kənarlaşdırıldı. Amerikalı atlet ikiqat Olimpiya çempionu, dördqat dünya çempionu Kristian Teylor yarışlarda dabanından aldığı zədə zəbəbindən Olimpiya Oyunlarında iştirak etmədi.

## Asiyalılar medalları necə hazırlayıblar?

Yaponiya iqtisadiyyatının elimi texniki tərəqqidə də nə qədər güclü olduğu heç kəsə sirr deyil. Tokioda fəaliyyət göstərən şirkətlər Olimpiya Oyunlarının təşkilində öz bacarıqlarını nümayiş etdirdilər. Tokio Olimpiya Komitəsi "Tokio-2020 Medal Project" layihəsi çərçivəsində maraqlı və qeyri-adi bir iş gördü. Olimpiya Oyunlarının Tokioda keçirilməsinin rəsmiləşdiyi vaxtdan etibarən layihə çərçivəsində yerli sakinlər iki il ərzində köhnə telefon və onların ehtiyyat hissələrini bir araya topladılar. Yerli şirkətlərdən biri toplanan köhnə telefonlardan Olimpiya və Paralimpiya Oyunlarının medallarını düzəltdilər. Belə ki, yaponiyalılar 79 ton ağırlığında olan elektron hissələrdən 32 kq qızıl, 3500 kq gümüş və 2200 kq bürünc metal əldə etdilər. Bu isə Olimpiya Oyunlarının medallarının hazırlanması üçün kifayət edib.

## Ən gənc və ən yaşlı iştirakçı

Tokio Olimpiadasında iştirak edən idmançılar arasında yaş fərqi də xüsusi diqqət çəkdi. Olimpiya Oyunlarının ən gənc iştirakçısı 11 yaşlı suriyalı tennisçi Hend Zaza oldu. O, 42 yaşlı rəqibi ilə mübarizədə qalib gələrək, Olimpiya Oyunlarına lisenziya əldə etmişdi. Ölkəsinin bayraqdarı olan Zaza açılış mərasiminin ertəsi günü yarışlarda uduzdu. Olimpiya Oyunlarının ən yaşlı iştirakçısı isə 66 yaşlı avstraliyalı çapar Meri Hanna oldu. Olimpiya Oyunlarının ən gənc mükafatçısı isə 13 yaşlı britaniyalı skeytbordçu Skay Braun oldu. O, Tokio-2020-nin bürünc medalına sahib çıxıb.

## Tokio Olimpiadası Rio-2016-nın rekordunu yeniləyə bilmədi

Müasir Olimpiya Oyunlarının tarixi Afinadan başlayır. Həmin Olimpiada haqqında məlumatları araşdırarkən görürük ki, 1896-cı ildə Qədim Yunanıstanda keçirilən Olimpiadada cəmi 241 idmançı qüvvəsini sınayıb. Onların arasında qadın idmançılara rast gəlinmir. Qadın idmançıların Olimpiya oyunlarındakı ilk çıxışı Parisə təsadüf edib. Belə ki, 1900-cu ildə keçirilən II Yay Olimpiya Oyunlarında 997 idmançı iştirak etmişdisə, onlardan 22-si qadın idmançı idi. Maraqlıdır ki, 4 il sonra ABŞ-ın Sent-Lüis şəhərində keçirilən III Yay Olimpiya Oyunlarında iştirakçıların sayında azalma qeydə alındı. 12 ölkənin (ABŞ, Almaniya, Avstraliya, Avstriya, Kanada, Böyük Britaniya, Kuba, Fransa, Macarıstan, Yunanıstan, CAR, İsveçrə) iştirakı ilə keçirilən Oyunlarda 651 idmançı çıxış edirdisə, onlardan 645-i kişi, 6-sı isə qadın atlet olmuşdu. 1908-ci ildən sonra tədricən iştirakçı sayında yenidən yüksəliş baş verdi. Londonda təşkil edilən IV Yay Olimpiya Oyunlarında 2008 atlet (1971 kişi, 37 qadın) fəxri mükafatlar uğrunda yarışmışdı.

**Olimpiya Oyunlarında iştirak edən idmançılar (kişi və qadın) 1896-2020**




## Kəmiyyət və keyfiyyət

Tokio-2020 Yay Olimpiya Oyunlarında ən çox idmançı ilə təmsil olunan ölkə ABŞ oldu. 613 idmançı ilə Oyunlarda iştirak edən amerikalılar 113 (39 qızıl, 41 gümüş, 33 bürünc) medala sahib çıxdılar. ABŞ komandası bu nəticə ilə Olimpiya Oyunlarını birinci pillədə tamamladı.



Ev sahibləri Yaponiya komandası yarışda 522 idmançı ilə təmsil olunurdu. "Gündoğar ölkə"nin idmançıları Olimpiya Oyunlarında 58 medalla əyarına görə üçüncü, sayına görə isə beşinci pilləni tutdular. Olimpiya Oyunlarına böyük heyətlə yollanan komandalardan biri də Avstraliya komandası oldu. Oyunlarda 449 idmançı ilə iştirak edən "yaşıl qitə" təmsilçiləri 46 medal əldə etdilər ki, onlardan 17-si qızıl, 7-si gümüş, 22-si isə bürünc medal idi. Avstraliya komandası bu nəticə ilə medal sıralamasında altıncı oldu. Maraqlıdır ki, Çin və Fransa yığma komandası olimpiadada eyni sayda - 392 atletlə təmsil olunurdu. Yekun nəticələrə əsasən Çin komandası 88 medalla ikinci (38 qızıl, 32 gümüş, 18 bürünc), Fransa millisi isə 33 medalla (10 qızıl, 12 gümüş, 11 bürünc) 8-ci yeri tutdu.

Olimpiya Oyunlarının favoritlərindən sayılan Böyük Britaniya və İtaliya yığması 372 atletlə Oyunlarda çıxış etdi. Yekunda ingilislər 65 medalla (22 qızıl, 21 gümüş, 22 bürünc) 4-cü, İtaliya isə 40 medalla (10 qızıl, 10 gümüş, 20 bürünc) 10-cu pillədə qərarlaşdı.

Kanada millisi Oyunlara 368 idmançı ilə yollanmışdı. Həmin idmançılardan 24 nəfəri öz ölkəsinə 7 qızıl, 6 gümüş, 11 bürünc medal qazandırdı. Şimali amerikalılar bu nəticə ilə medal sıralamasında 11-ci oldular.

Almaniya komandası isə Yaponiya paytaxtına 349 idmançı aparmışdı. Bu idmançılardan 37 nəfəri 10 qızıl, 11 gümüş, 16 bürünc medalla qayıdaraq 9-cu yeri tutublar.

Bu rəqəmlərdən də görünür ki, hansı komanda olimpiadaya daha çox heyət aparırsa, o da daha çox medala sahib çıxıb.

***Hazırladı:***
***Anar Əhmədov***

— Paralimpiya mükafatçılarımız —

# İlham Zəkiyev:
# "NÖVBƏTİ HƏDƏFİM BEŞİNCİ PARALİMPİYA MEDALINI QAZANMAQDIR"

***Bu yaxınlarda Yaponiyanın paytaxtı Tokioda XVI Yay Paralimpiya Oyunları təşkil olundu. 163 ölkədən 4400-dək idmançının iştirak etdiyi Oyunlarda Azərbaycan Paralimpiya komandası da təmsil olunurdu. Komandamız bu yarışlarda uğurla çıxış edərək 14 qızıl, 1 gümüş və 4 bürünc olmaqla, ümumilikdə 19 medal qazandı. Komandamız bu nəticə ilə medal sıralamasında onuncu yeri tutdu. Bu, Azərbaycanın həm Paralimpiya, həm də idman tarixində görünməmiş hadisə oldu.***

Bu dəfəki Paralimpiya Oyunları komandamız üçün həm uğurlu nəticələr, həm rekordlar, həm də ilklərlə yadda qaldı. Komandamız üçün yaddaqalan hadisələrdən biri isə Paralimpiya Hərəkatının ən öndəgedən simalarında biri olan ikiqat Paralimpiya çempionumuz, İlham Zəkiyevin Tokioda mükafatçılar sırasında yer alması oldu. İkiqat dünya, yeddiqat Avropa çempionumuz bununla da ardıcıl iştirak etdiyi beşinci Paralimpiya Oyunlarında dördüncü mükafatını qazandı. İdmançımız bununla Azərbaycanın Paralimpiya Oyunları tarixində özünəməxsus yer tutdu.

Bu günlərdə "Şöhrət" ordenli, Tərəqqi medallı dördqat Paralimpiya çempionumuz, Azərbaycanın Əməkdar idman ustası, Qarabağ müharibəsi əlili və qazisi İlham Zəkiyevlə əlaqə saxladıq. Müsahibimiz bizimlə söhbətində Paralimpiya Oyunlarındakı çıxışı, Oyunlarda aldığı zədəsi və Şuşa şəhərinə etdiyi səfər barəsində danışdı.

***- İlham müəllim, əvvəlcə Sizi Tokio-2020 Yay Paralimpiya Oyunlarının bürünc mükafatçısı olmağınız münasibəti ilə təbrik edirik. Dördqat Paralimpiya mükafatçısı olmaq necə bir hisdir?***



- Çox gözəl bir hisdir. Növbəti hədəfim beşinci Paralimpiya medalını qazanmaqdır. Mövcud zədələrimi aradan qaldırdıqdan sonra 2024-cü ildə Parisdə təşkil olunacaq Oyunlarda yenidən Paralimpiya medalını qazanmağa çalışacağam.

***- Tokio-2020-də keçirdiyiniz görüşlər elə də asan olmadı. Necə düşünürsünüz, sizcə hansı görüş Sizin üçün daha çətin oldu?***

- Tokioda ilk görüşüm İngiltərə təmsilçisi ilə oldu. Qeyd edim ki, bu Oyunlara qədər həmin cüdoçu ilə dörd dəfə qarşılaşmışdım və ümumi hesab 4:0 mənim xeyrimə idi. Bu dəfə o, yarışa daha yaxşı hazırlaşmışdı. Bundan əlavə topuğumda zədə olduğu üçün bu da mənə bir qədər güləşməkdə çətinlik yaradırdı. Rəqibimi çaşdırmaq və zədənin hansı ayağımda olmasını bilməməsi üçün həkimdən hər iki topuğumu sarımasını xahiş etmişdim. Rəqib çox kobud şəkildə güləşərək hər iki topuğuma möhkəm zərbələr endirirdi. Onunla görüşümüz altı dəqiqə yarım davam etdi. Gərgin mübarizənin sonunda qalib gələrək, növbəti mərhələyə vəsiqə qazandım. Bu mərhələdə rəqibim koreyalı idmançı, ikiqat Paralimpiya çempionu idi. Həmin qarşılaşmada sol ayağımın iki barmağı sındı. Amma buna baxmayaraq, barmağımın qırılmağını rəqibimə bildirmədim və görüşü davam etdirdim. Səkkiz dəqiqə yarım davam edən qarşılaşma rəqibin üstünlüyü ilə başa çatdı. Görüşdən sonra mənə tibbi yardım göstərildi. Həkimlər ayağımı sarıyanda ağrılara baxmayaraq dözməyə çalışırdım ki, birdən mübarizəmi davam etdirməyə icazə verməzlər. Bunun üçün onlara sadəcə, yüngül zədə aldığımı və əlavə yardımlara ehtiyac olmadığını bildirdim. Bununla da, növbəti mərhələdə zədəli halda güləşdim və bürünc medala sahib çıxdım. Əsas odur ki, Tokio-2020-dən əliboş qayıtmadım.

***- Cüdoçularımız Tokio Paralimpiadasında birinci oldular. Ümumilikdə isə komandamız Tokioda bir tarix yazdı.***

- Bəli, cüdo üzrə pralimpiya yığmamız Oyunlarda 6 qızıl və 2 bürünc medalla tarixi nəticəyə imza atdı. Bu nəticə ilə cüdo yarışlarının birincisi olduq. Bu, Azərbaycan Paralimpiya cüdosunun inkişafından xəbər verir. Biz qazandığımız nəticələrlə sübut etdik ki, Azərbaycanda cüdo idman növü var. Ümumilikdə götürdükdə isə paralimpiyaçılarımız Tokio-2020-ni 19 medalla başa vurdu. Bu medallardan 14-ü qızıl, 1-i gümüş, 4-ü isə bürüncdür. Qazanılan bu medal Azərbaycanın Paralimpiya Oyunları tarixində ən böyük uğuru idi. İnanıram ki, paralimpiyaçılarımız uğurları ilə növbəti yarışlarda da xalqımızı sevindirəcəklər.

***- Ötən il Tokio-2020 təxirə salınanda zədəli idiniz. Görünür, paralimpiadanın təxirə salınması işinizə yaradı.***

- Şükür Allahın məsləhətinə. Oyunların təxirə salınması kiməsə sərf etdi, kiməsə yox. Amma deyərdim ki, yarışın təxirə salınması daha yaxşı oldu ki, biz ora qalib ölkənin idmançıları kimi getdik. Bunun özü də idmançılarımız üçün bir təkan idi. Bundan başqa Tokio Paralimpiadasının təxirə salınması zədələrimi aradan qaldırmaq baxımından mənə sərf etdi. Qeyd edim ki, ötən il Düsseldorfda olimpiyaçılarla beynəlxlaq təlim-məşq toplanışında topuğumdan çox ciddi zədə almışdım. Hətta bir il üç ay tatamiyə çıxa bilmədim. Tokio Paralimpiadasına da zədə ilə yollanmışdım. Yarışdan əvvəl heç kimə zədəli olmağım barədə deməmişdim. Çünki istəmirdim ki, kimsə bunu bəhanə kimi qəbul etsin. Biz ora qalib ölkənin idmançıları kimi getmişdik və üçrəngli bayrağımızı orada dalğalandıra bildik. Bu qələbəni Ali Baş Komandan cənab İlham Əliyevə, şəhidlərimizə, şəhid ailələrinə və qazilərimizə həsr edirəm. Çünki onlar bizə daha əzəmətli qələbəni yaşatdılar. Üçrəngli bayrağımız işğaldan azad olunmuş torpaqlarda yenidən dalğalandırıldı. Həmin anlar çox qürurverici idi.

***- Rio Paralimpiadasında qarşılaşdığınız rəqiblər ciddi görmə qüsuru olmayan idmançılar idi. Deyəsən, Tokioda da bu hal aradan qalxmamışdı.***

- Bəli, təəssüf ki, bu problemlər Tokio Paralimpiadasına qədər də aradan qaldırılmadı. Baxmayaraq ki, bu barədə dəfələrlə beynəlxalq quruma müraciət etmişdim. Bu dəfəki Oyunlarda da həmin kateqoriyada olan idmançılar mənə rəqib oldular. Bu yaxınlarda həmin məsələ ilə bağlı Beynəlxalq Cüdo Federasiyasının rəhbərliyi ilə yenidən danışmışam. Yarışların ədalətli olması üçün heç görməyənlər ayrı güləşməlidirlər. Yəqin ki, növbəti oyunlarda bu məsələ öz həllini tapacaq. Bu baxımdan Paris-2024-ün daha ədalətli olacağına inanıram.

***- Həmin idmançıların Sizdən üstün cəhəti görmələri idi. Amma bu üstünlük belə, onların köməyinə çatmadı.***

- Bəli, qarşılaşdığım rəqiblərin hamısı görürdülər. Orada görməyən idmançı bir braziliyalı idmançı idi, bir də mən. Braziliyalı cüdoçu ilk görüşdə kubalı rəqibinə 8 saniyəyə məğlub oldu. Təbii ki, görən idmançının reaksiyası görməsində ciddi problem olan idmançıdan daha yaxşı olur. Biri var mən onun nə edəcəyini hiss edim və onun qarşısını alım. Biri də var ki, rəqib mənim əlimi, ayağımı, tətbiq edəcəyim fəndi görür və qarşısını alır. Bu isə həmin idmançının tatamidə məndən bir addım daha üstün olması deməkdir. Şükür Allaha rəqiblərimin görmələri onlara kömək olmadı, görüşdə qalib gələrək, bürünc medala sahib çıxdım.

***- Yəqin ki, Bakıya qayıtdıqdan sonra zədənizin bərpası ilə də məşğul olursunuz?***

- Bəli, Bakıya qayıtdıqdan sonra həkimə müraciət etdim. Hazırda zədəmin bərpası üzərində çalışıram. İnşallah zədələrimi müalicə etdikdən sonra məşqlərə yenidən başlayacağıq.



***- Qəzetimizə verdiyiniz əvvəlki müsahibələrinizin birində qeyd etmişdiniz ki, ən böyük arzularınızdan biri də Şuşada olmaqdır. Bu günlərdə Şuşa şəhərində şəhid anaları və şəhid övladları üçün tədbir keçirildi. Siz də Olimpiya çempionlarımızla birgə bu tədbirdə iştirak etmişdiniz. Şuşa şəhəri Sizə necə təsir bağışladı?***

- Sentyabrın 19-da Şuşa şəhərində şəhid övladları, Olimpiya çempionları ilə birgə tədbirdə iştirak etdim. Həmin tədbirdə mənimlə yanaşı Olimpiya çempionlarımız Nazim Hüseynov, Zemfira Meftaxetdinova, Namiq Abdullayev, Fərid Mansurov, Elnur Məmmədli və görkəmli incəsənət ustalarımız iştirak edirdilər. İsa bulağında, Cıdır düzündə, Gövhər Ağa məscidində oldum. Çox gözəl tədbir keçdi. Tədbirdən sonra Şuşada qalıb, hərbçi dostlarla görüşdüm. Şuşaya daxil olanda çox maraqlı hisslər yaşadım. Şəhidlərimizi, qazilərimizi xatırladım, qanları bahasına gözəl yurdumuzu düşmənlərdən azad etməsini xəyalımda canlandırdım. Bu hissləri heç vaxt yaşamamışdım. İnsan həm kövrəlir, həm də sevinirdi. Allahdan bütün şəhidlərimizə rəhmət diləyir,



qazilərimizə isə şəfa arzulayıram. Biz bu gün onların sayəsində doğma torpaqlarımıza ayaq basırıq. Var olsun Ali Baş Komandanımız və müzəffər Ordumuz!

***- Yeri gəlmişkən, bildiyimizə görə mütəmadi olaraq Vətən müharibəsinin qaziləri ilə görüşlər keçirir, onlara öz tövsiyələrinizi verirsiniz.***

- Bəli, Vətən müharibəsi zamanı qulluq etdiyim və yaralandığım ərazilərə yollanmışdım. Orada əsgər və zabitlərlə görüşür, onlarla döyüşdən əvvəl motivasiya xarakterli söhbət edirdim. Hətta 1999-cu ildə yaralanandan sonra müalicə aldığım hospitala baş çəkdim, orada olan yaralı hərbçilərimizi ziyarət etdim. Bundan başqa şəhid olan hərbçilərimizin dəfnində iştirak edir, şəhid ailələrini və qazilərin ailələrini ziyarət edirdim. Döyüşlərdən sonra çalışırdım ki, ən birinci görmə qabiliyyətini itirən qazilərimizin ünvanlarını öyrənim və onları ziyarət edim. Çünki həmin vaxtı onları məndən yaxşı heç kim başa düşə bilməzdi. Cəlilabadda İsmayıl, Xızıda Kamran, Novxanıda Amil adlı qazimiz var idi ki, hər iki gözü görmə qabiliyyətini itirmişdi. Bundan başqa bir neçə qazilərimizi ziyarət edib, onlara öz dəstəyimi göstərirdim.

***- Siz həm də Azərbaycan Milli Paralimpiya Komitəsinin vitse-prezidentisiniz. Hazırda komitədə Vətən müharibəsinin qaziləri ilə işlər hansı istiqamətdə qurulub?***

- Bildiyiniz kimi, biz Vətən müharibəsindən sonra qazilərimizin Paralimpiya Hərəkatına cəlb olunması istiqamətində tədbirlər həyata keçirirdik. Düzdür, paralimpiadaqabağı AMPK-nın rəhbərliyi və digər əməkdaşlar bütün gücü ilə Tokio-2020-yə köklənmişdi. Amma mütəmadi olaraq, qazilərimizlə də müəyyən görüşlər həyata keçirilirdi. Mən də dəfələrlə öz müraciətlərimdə onlara demişəm ki, tam reabilitasiya mərhələsini keçdikdən sonra Azərbaycan Milli Paralimpiya Komitəsinə müraciət etsinlər. Qazilərimizin əlilliyinə uyğun olaraq məşqçilərimiz, mütəxəssislərimiz onlarla məşğul olacaq və uyğun olan idman növünə yönəldəcəklər. İnanıram ki, təcrübəli mütəxəssislərimiz onların arasında gələcəyin Paralimpiya, dünya və Avropa çempionlarını yetişdirəcəklər.

*Azər Əlizadə*

### Qrossmeysterlərimiz “Champions Chess Tour”un final mərhələsində iştirak edəcəklər

Sentyabrın 25-də “Champions Chess Tour”un final mərhələsi start götürəcək. Yarışda Azərbaycan qrossmeysterləri Şəhriyar Məmmədyarov və Teymur Rəcəbov da iştirak edəcəklər.



Şahmatçılarımızla yanaşı, turnirdə dünya çempionu Maqnus Karlsen (Norveç), Aniş Giri (Hollandiya), Uesli So, Hikaru Nakamura (hər ikisi ABŞ), Levon Aronyan (Ermənistan), Yan Nepomnyaşi, Vladislav Artemiyev (hər ikisi Rusiya) və Maksim Vaşe-Laqrav (Fransa) mübarizə aparacaqlar.

Turnir oktyabrın 4-dək davam edəcək.




## Bodibildinqçimizdən tarixi uğur

İspaniyanın Sevilya şəhərində bodibildinq üzrə mötəbər “Arnold Klassik Avropa” yarışı keçirilib. Yarışda iştirak edən Azərbaycan idmançıları iki medala sahib çıxıblar. Bodibildinqçilərimizdən Əliyulla Abbaszadə yarışlarda tarixi uğura imza atıb. Turnirdə 95 kq çəki dərəcəsində çıxış edən təmsilçimiz bütün rəqiblərini qabaqlayaraq, nüfuzlu yarışın qalibi adını qazanıb. Ə.Abbaszadə həmçinin mütləq kateqoriyada üçüncü olub. Bu medal Azərbaycan bodibildinq idmanı tarixində “Arnold Klassik” yarışlarında qazanılan ilk mükafatdır.

Digər idmançımız Rasim Həsənov isə mens fizik yarışlarında fərqlənərək qızıl medal qazanıb. R.Həsənov mayda İspaniyada təşkil olunan Avropa çempionatında da birinci olmuşdu.

“Arnold Klassik Avropa” yarışı 2011-ci ildən keçirilir. Hər il İspaniyada keçirilən yarış məşhur idmançı Arnold Şvartseneqqerin təşəbbüsü və Beynəlxalq Bodibildinq və Fitness Federasiyasının təşkilatçılığı ilə baş tutur.

**İdmançılar, talelər**



# OLİMPİYA OYUNLARININ GÖZLƏNİLMƏZ ÇEMPİONU

Yaponiyanın Tokio şəhərində təşkil olunan XXXII Yay Olimpiya Oyunları Huseyn Boltun karyerasını başa vurduqdan sonra keçirilən ilk Olimpiadadır. Yamaykadan olan dahi atlet uzun illər 100 və 200 metr məsafələrdə Olimpiya çempionu adını qazanıb. Məhz bu səbəbdən budəfəki Oyunların əsas gözlənilən məqamlarından biri Boltun hələ də “boş taxtının” kimin tutacağı idi. Nəticə isə həqiqətən də gözlənilməz oldu. Belə ki, az insanın ağlına gələrdi ki, növbəti üç il planetin ən sürətli insanı Amerika əsilli italiyalı sprinter Lemont Ceykobs olacaq. Lakin Olimpiya Oyunlarında yüz metr məsafəyə yarışlarda qalib gələn sprinterin ətrafında xeyli mübahisələr gəzir.

Onun qısa məsafədə qazandığı qələbə nadir və əhəmiyyətli hadisədir. Amma müxtəlif səbəblərdən atletin uğuru ətrafında xeyli mübahisələr yaranıb. Bəs əslində, Lemont Ceykobs kimdir?

### Atlet ABŞ vətəndaşlığından imtina edir

26 yaşlı Lemont Ceykobs Texasın El-Paso şəhərində amerikalı əsgər və italiyalı qadının ailəsində dünyaya gəlib. İdmançının valideynləri hərbi təlimlər zamanı tanış olublar. Belə ki, bir gün Lemontun atası NATO ordusunun



birgə təlimləri üçün İtaliyaya gəlir. Həmin vaxt yeməkxanada işləyən atletin anası okeanın o tayından təlimlərə qoşulan əsgərlərə yemək hazırlayırdı. Elə məhz buradan da onların həyat hekayələri başlayır. Maraqlıdır ki, atletin atası gələcək həyat yoldaşına İtaliyada təşkil olunan toplanış zamanı evlilik təklif edir. Lemontun anası bu təklifi qəbul edir və onlar elə orada özlərinə toy edirlər. Lakin bundan sonra yeni ailə qurmuş cütlüyün qarşısında harada yaşayacaqları barədə sual yaranır. Amerikanı çox sevən Lemontun atası həyat yoldaşından orada yaşamaqlarını istəyir. Lakin yeni qurulmuş ailənin körpəsinin dünyaya gəlməsindən bir neçə gün sonra atanı yenidən toplanış üçün Cənubi Koreyaya göndərirlər. Yeni doğulmuş övladı ilə tək qalan ana, həyat yoldaşının arxasınca getmək yerinə, İtaliyaya qayıtmaq qərarını verir.

Beləliklə, məhz hüquq toqquşması səbəbindən L.Ceykobs ikili vətəndaşlıq əldə edir. Amma bu amil uzun müddət Lemontun beynəlxalq karyerasına mane olur. Buna səbəb isə Beynəlxalq Yüngül Atletika Federasiyasının ikili vətəndaşlığı olan idmançılara birmənalı münasibət bəsləməməsi idi.

2015-ci ildə L.Ceykobs artıq İtaliyanı təmsil edəcəyinə qəti qərar verərək, Amerika vətəndaşlığından imtina edir. Onun karyerasında vətəndaşlıqla bağlı hüquqi çətinliklər həqiqətən də olub. Buna baxmayaraq, o, hər zaman italiyalı olaraq qalıb və idmançı yerli məsələlərin həlli üçün heç vaxt yerli federasiya tərəfindən təklif almayıb.

### Atası ilə problemlər ona qələbə qazanmağa mane olurdu

Lemont Ceykobs özünü hər yerdə italiyalı kimi təqdim edirdi. Onu Amerikaya bağlayan doğulduqdan sonra bir neçə ay Texasda yaşaması və atasının genləri idi. Bir sözlə, ABŞ onun üçün münasibətləri alınmayan atasının ölkəsidir. İdmançının böyüməsinə və zamanın keçməsinə baxmayaraq, onlar 20 ilə yaxın ünsiyyət qurmadılar. Belə ki, Lemont atasının anasını körpə ikən tərk etdiyinə əmin idi və bunu ona bağışlaya bilmirdi. Məhz buna görə o, kiçik yaşlarından psixoloji problemlərlə mübarizə aparırdı.

Dərin psixoloji zədələr xeyli müddət Lemonta özünü yaxşı tərəfdən göstərməyə mane olurdu. İdmanda psixoloji sağlam olmağın vacib şərtlərdən biri olması hər kəsə məlumdur. Bu səbəbdən də L.Ceykobsun məşqçisi ona atası ilə münasibətini düzəltməyi təkid edirdi. Fabio Kamossi ona qorxu və tərəddüdlərini dəf etmək üçün əla bir psixoloq məsləhət gördü. Düzdür, ailənin əvvəlki kimi bir yerdə olması mümkün olmasa da, atlet atası ilə sosial şəbəkə vasitəsi ilə ünsiyyətini təmin edirdi. Lakin ingilis dilini mükəmməl şəkildə bilməyən idmançıya atası ilə telefon vasitəsilə əlaqə qurmaq mümkün olmurdu. Hətta o, atası ilə yazışmalarında tərcüməçi proqramdan istifadə edirdi.

### İtaliya rekorduna imza atan sprinter

Lemontun həyat hekayəsində ən təəccüblüsü atletin doğulduğu yer və valideynlərinin vətəndaşlığı deyil, onun idman yoludur. Adətən elit sprinter demək olar ki, uşaq yaşlarından özünü biruzə verir. Amma maraqlıdır ki, Ceykobsun uğur qazanacağına məşqçilər son ana qədər inanmırdılar. İdmançı qaçmağı çox sevdiyi üçün onu uzununa tullanma sektoruna göndərdilər. Əslində, bu, onda heç də pis alınmırdı. Lemont hətta milli rekordla (8,48) İtaliya çempionu belə olub. Amma təəssüf ki, bu rekord güclü külək səbəbi ilə qəbul edilməyib. Hər şey Lemont Fabio Kamossinin həyatında mövcudluğu ilə dəyişdi. Həqiqətən də, onun italiyalının Olimpiya zəfərindəki rolu qiymətsizdir.

Böyük sürətə sahib olan idmançının əsl tapıntı olduğunu və onu tullanmada saxlamağın əsassız olduğunu ilk olaraq Fabio anlamışdı. İnanmaq çətin olsa




da, Lemont yüzmetrilik məsafəyə ciddə şəkildə qaçmağa yalnız 2018-ci ildə başlayıb. O, bir neçə ildə həqiqətən də inanılmaz yüksəliş yaşayıb. Maraqlıdır ki, 2019-cu ildə Dohada keçirilən dünya çempionatında Lemont yalnız 10,20 nəticə göstərir və finala yüksələ bilmir. COVİD-19 pandemiyasından bir neçə ay əvvəl isə idmançı 10,10 və 10,03 nəticə göstərir.

Yüzmetrlik qaçışa köklənmək üçün Lemont bir qədər taktikasını dəyişməli oldu. Onun bu addımı gözlənilən nəticəni verdi. 2021-ci il mayın 13-də o, yüzmetrlik məsafəni 10 saniyəyə qət edən, 150-ci atlet oldu. Lemont eyni zamanda İtaliya rekorduna da imza atdı.

Atletin ən böyük uğuru isə Tokio-2020 Yay Olimpiya Oyunlarına təsadüf etdi. O, olimpiadada hər kəsi təəccübləndirərək, 100 metrlik məsafədə 9,80 saniyə nəticə ilə çempion adını qazandı. İdman aləminin heç kəsin Huseyn Boltun yerini tuta bilməyəcəyini düşündüyü anda Lemont Ceykobs bunun tam əksini sübut etdi. Bununla da, atlet keçmişdə yaşadığı psixoloji zədələrə son qoyaraq, uğurlu gələcəyə ilk addımını atdı.

*Hazırladı:*
*Türkay Niftəliyeva*

## Pəhləvanlarımız dünya çempionatına hazırlaşırlar

Oktyabrın 2-dən 10-dək Norveçin paytaxtı Osloda güləş üzrə dünya çempionatı keçiriləcək. Çempionatda sərbəst, yunan-Roma və millimiz güləşi üzrə milli komandalarımız da iştirak edəcək. Yığmalarımız hazırda yarışa hazırlıqları davam etdirir. Sərbəst güləşçilərimiz hazırlıq prosesində baş məşqçi Namiq Abdullayev, böyük məşqçi Zəlimxan Hüseynov və məşqçi Arif Abdullayevin rəhbərliyi altında məşq edirlər. Olimpiya Güləş Mərkəzində keçirilən təlim-məşq toplanışı sentyabrın 30-dək davam edəcək və millimiz Osloya yollanacaq. Oktyabrın 1-də sərbəst güləş üzrə püşkatma mərasimi keçiriləcək. Növbəti gün 61 kq, 74 kq, 86 kq və 125 kq çəki dərəcələrində yarışa start veriləcək. Oktyabrın 3-də 57 kq, 65 kq, 79 kq və 92 kq, ayın 4-də isə 70 kq və 97 kq çəki dərəcələrində çıxış edən sərbəst güləşçilər mübarizəyə qoşulacaqlar. Sərbəst güləş üzrə yarışa oktyabrın 5-də yekun vurulacaq.

Qadın güləşçilərimiz də baş məşqçi Aslan Ağayev və məşqçi Rövşən Umudovun rəhbərliyi altında Bakıda təlim-məşq toplanışı keçir. Olimpiya Güləş Mərkəzində təşkil olunan məşqlər həftədə 6 dəfə olmaqla keçirilir. Məşqçilər korpusunun tərtib etdiyi proqrama əsasən, həftənin 3 günü gündəlik 2 məşq, digər 3 günündə isə 1 məşq reallaşır. Dünya çempionatına hazırlıq xarakteri daşıyan təlim-məşq toplanışı oktyabrın 2-dək davam edəcək.

Qeyd edək ki, Osloda qadın güləşçilərin mübarizəsi oktyabrın 4-7-də baş tutacaq.

Klassiklərimiz isə baş məşqçi Aleksandr Tarakanov, böyük məşqçi Rövşən Bayramov, məşqçilər Akif



Əliyev və Həsən Əliyevin rəhbərliyi altında Olimpiya Güləş Mərkəzində məşq edirlər. Hazırlıq prosesi oktyabrın 4-dək Bakıda davam edəcək. Növbəti gün millimiz Osloya yollanacaq.

Qeyd edək ki, oktyabrın 6-da güləşin klassik növü üzrə püşkatma mərasimi keçiriləcək. Növbəti gün 55 kq, 72 kq, 77 kq və 82 kq çəki dərəcələrində yarışa start veriləcək. Oktyabrın 8-də 60 kq, 97 kq və 130 kq, ayın 9-da isə 63 kq, 67 kq və 87 kq çəki dərəcələrində çıxış edən yunan-Roma güləşçiləri mübarizəyə başlayacaqlar.

Dünya çempionatına oktyabrın 10-da yekun vurulacaq.

# FUTBOL



## Azərbaycan Premyer Liqası: “Neftçi” və “Qəbələ”dən böyükhesablı qələbə

*Futbol üzrə Azərbaycan Premyer Liqasında IV turun oyunları keçirilib. Turun açılış matçı Qəbələdə təşkil olunub. Şəhərin eyniadlı komandası “Səbail”i qəbul edib. Qarşılaşma ayalət təmsilçisinin 5:0 hesablı qələbəsi ilə başa çatıb. “Qırmızı-qaralar”ın heyətində 65-ci dəqiqədə Rövlan Muradov hesabı açıb. Matçın 83-cü dəqiqəsində Ülvi İsgəndərov fərqi iki topa çatdırıb.*



Oyunun 85-ci dəqiqəsində “Səbail”in yarımmüdafiəçisi Ədilxan Qarəhmədov ikinci sarı vərəqə alaraq meydandan qovulub. 89-cu dəqiqədə Ehtiram Şahverdiyev baxımlı qola imza atıb. Görüşün 90+1-ci dəqiqəsində Rafael Utriq topu paytaxt klubunun qapısından keçirib. Matçın 90+4-cü dəqiqəsində isə İsnik Alimi matçda son nöqtəni qoyub.

Bu qələbədən sonra xallarının sayını 10-a çatdıran “Qəbələ” birinci pilləyə yüksəlib. “Səbail” isə hələlik 6 xalla üçüncüdür.

Günün ikinci matçında “Zirə” klubu “Sabah”ı qəbul edib. Zirə İdman Kompleksinin stadionunda keçirilən qarşılaşma 1:1 hesabı ilə yekunlaşıb. Oyunda hesabı 49-cu dəqiqədə meydan sahiblərinin legioneri Mohamed Hamdaui açıb. “Sabah”ın futbolçusu Şpiro Periçiç 83-cü dəqiqədə qonaqların bərabərlik qolunu vurub.

Bu görüşdən sonra xallarının sayını 5-ə çatdıran “qartallar” turnir cədvəlinin 5-ci pilləsinə yüksəlib. İlk xalını qazanan “Sabah” isə 7-ci yerdədir.

Sentyabrın 19-da futbol üzrə Azərbaycan Premyer Liqasında IV turun daha bir oyunu keçirilib. Turun üçüncü matçında son çempion “Neftçi” autsayder “Keşlə”ni qəbul edib. “Bakcell Arena”da təşkil olunan qarşılaşma meydan sahiblərinin 3:0 hesablı qələbəsi ilə başa çatıb. Matçda ilk qol 36-cı dəqiqədə vurulub. Yusuf Lavalın sağ cinahdan ideal ötürməsini qəbul edən Sezar Meza Kolli sabiq komandasını cəzalandırıb. Birinci hissə “ağ-qaralar”ın minimal hesablı üstünlüyü ilə başa çatıb.

İkinci yarıya da fəal başlayan flaqman 50-ci dəqiqədə fərqi 2 topa çatdırıb. Bu dəfə “ağ-qaralar”ın yeni transferi Ramon Maçado fərqlənib. Fasilədən sonra Meza Kollinin yerinə meydana daxil olan braziliyalı futbolçu yaxşı təşkil olunmuş hücumu dəqiq zərbə ilə tamamlayıb. Bu, 30 yaşlı forvardın paytaxt təmsilçisində ilk qolu olub. Oyunda son nöqtəni isə 68-ci dəqiqədə İsmayıl Zülfüqarlı qoyub.

Bu qələbədən sonra xallarını 7-yə çatdıran “Neftçi” 3-cü pilləyə yüksəlib. Xalı olmayan “Keşlə” isə sonuncudur.

## UEFA-nın yeni reytinq siyahısı açıqlanıb



Avrokuboklarda qrup mərhələsinin ilk turunun oyunlarından sonra UEFA-nın yeni reytinq siyahısı açıqlanıb. UEFA Konfrans Liqasının H qrupunun ilk turunda Bakıda İsveçrənin “Bazel” komandası ilə qolsuz heç-heçə edən “Qarabağ” Azərbaycanın aktivinə daha 0,125 xal yazdırıb.

Bununla da, cari mövsümdə Azərbaycanın xal sayı 2,125-ə, son 5 mövsümdə ümumi xal sayı isə 14,750-ə çatıb. Əldə edilən xallarla Sloveniyanı üstələmək mümkün olub. Hazırda Azərbaycan 29-cu, Sloveniya isə 30-cudur.

Klubların UEFA reytinqində isə “Qarabağ” 18,500 xalla 71-ci pillədəki mövqeyini qoruyub.

Siyahıya 118 xalla Almaniyanın “Bavariya” klubu başçılıq edir. İngiltərənin “Mançester Siti” klubu (113 xal) ikinci, “Liverpul” (107 xal) isə üçüncü sırada qərarlaşıb.



## Yeni süni örtüklü meydança istifadəyə verilib

Bakıda Azərbaycan Futbol Federasiyaları Assosiasiyası (AFFA), Yasamal Rayon İcra Hakimiyyəti və Yasamal bələdiyyəsi tərəfindən birgə inşa olunmuş yeni süni örtüklü meydança sakinlərin istifadəsinə verilib.

Tədbirdə AFFA-nın icraçı vitse-prezidenti Elxan Məmmədov, Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Elşad Həsənov, AFFA İcraiyyə Komitəsinin üzvü İsgəndər Cavadov, veteran futbolçu Vəli Qasımov, Milli Məclisin deputatı Elnur Allahverdiyev və digər rəsmi şəxslər iştirak ediblər.

Açılışda iştirak edən uşaqlar və qonaqların iştirakı ilə simvolik olaraq futbol oyunu keçirilib.

## “Kəndlərdə idmanı inkişaf etdirək” layihəsi üzrə növbəti tədbir

“Kəndlərdə idmanı inkişaf etdirək” layihəsi üzrə növbəti tədbir Cəbrayıl rayonunun Cocuq Mərcanlı qəsəbəsində keçirilib. Tədbirdə futbola marağı artırmaq məqsədilə 50 məktəbli uşağa idman geyimləri və futbol topları verilib.

Bu layihə Prezident İlham Əliyevin 2010-cu il dekabrın 25-də Azərbaycan Milli Olimpiya Komitəsində idmançılarla görüşü zamanı kəndlərdə idmanın inkişafına dair verdiyi tövsiyələrin yerinə yetirilməsi istiqamətində atılmış addımdır.

Tədbirdə AFFA-nın vitse-prezidenti, Azərbaycan Uşaq və Gənclər Futbol Federasiyasının prezidenti, Milli Məclisin deputatı Rauf Əliyev, Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov, deputatlar Ceyhun Məmmədov, Vüqar Bayramlı və rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Layihə üzrə 2021-ci ildə respublikamızın müxtəlif bölgələrində yerli icra hakimiyyəti orqanları ilə birlikdə “Kəndlərdə idmanı inkişaf etdirək” layihəsi üzrə tədbirlər keçirilib. Bu layihə üzrə tədbirlərin respublikamızın digər bölgələrində də həyata keçirilməsi nəzərdə tutulub.



## Bakı Kəndlər Futbol Federasiyasının prezidenti AFFA tərəfindən təlif olundu



Azərbaycan Respublikasının Əməkdar Bədən Tərbiyəsi və İdman Xadimi, Bakı Kəndlər Futbol Federasiyasinin prezidenti Vaqif Davudov AFFA tərəfindən təşəkkürnamə ilə təltif olunub. Təcrübəli mütəxəssis futbolda uzun müddətli səmərəli fəaliyyətinə, A.A.Banişevskinin 75 illik yubileyi, Banişevski turnirinin 25 illiyi və Bakı Kəndlər Futbol Federasiyasının 15 illiyi münasibətilə mükafatlandırılıb.

Göstərilən diqqət və qayğıya görə AFFA rəhbərliyinə minnətdarlığını bildirən Vaqif Davudov yeniyetmə və gənclərin futbola marağının artmasına və kütləviliyin təmin olunmasına əlindən gələni edəcəyini bildirib.

## “Şirinlər” Qətərə vəsiqə əldə etdilər

Heydər Əliyev Mərkəzinin parkında “Red Bull Neymar Jrs Five” futbol turnirinin milli finalı keçirilib. İki ay davam edən seçimlərdən sonra 16 komanda turnirin finalında iştirak etmək imkanı qazanıb. Olimpiya sistemi üzrə təşkil edilən final güclü rəqabət ilə yadda qalıb. Dörd saat davam edən milli finalın həlledici görüşündə “Şirinlər” və “Pentatrik” komandaları üz-üzə gəliblər. Yekunda “Şirinlər” 4:0 hesabı ilə qalib gələrək “Red Bull Neymar Jrs Five”ın Azərbaycan üzrə qalibi olub. Qeyd edək ki, bu, “Şirinlər” komandasının “Red Bull Neymar Jrs Five” yarışında ikinci qələbəsidir. “Şirinlər” komandası dekabrda ulduz futbolçu Neymarın iştirakı ilə Qətərdə keçiriləcək dünya finalında Azərbaycanı təmsil edəcək.



Xatırladaq ki, “Red Bul Neymar Jrs Five” - dünyanın hər bir tərəfindən futbol həvəskarlarını birləşdirən “beşin beşə” qlobal turnirdir. İldən ilə ölkələrin sayı artır və turnirin coğrafiyası genişlənir. Bu il yarış daha böyük olacaq. Altı qitədən 60-dan çox ölkədə seçim mərhələləri təşkil olunur. Yarışda öz ölkələrində milli finalın qalibi olan komandalar əsas dünya finalında iştirak hüququ qazanırlar.



Dünya-idmanı



## Pele səhhəti ilə bağlı açıqlama verdi

Əməliyyat olunduqdan sonra yenidən reanimasiya şöbəsinə yerləşdirilən əfsanəvi futbolçu Pele səhhəti ilə bağlı açıqlama verib. 81 yaşlı braziliyalı sabiq hücumçu bu barədə şəxsi instaqram hesabında yazıb.

O, sağalmağa davam etdiyini vurğulayıb: "Bu gün ailə üzvlərim məni ziyarət edib. Hər gün gülümsəməyə davam edirəm. Sizdən aldığım bütün sevgilərə görə təşəkkürümü bildirirəm".

Qeyd edək ki, Pele sentyabrın 6-da bağırsağındakı şiş ucbatından əməliyyat olunub. Onun səhhəti sentyabrın 17-də yenidən pisləşmişdi.

## Tokio Marafonu pandemiyaya görə təxirə salındı

Bu il keçirilməsi nəzərdə tutulan Tokio Marafonu təxirə salınıb. Bu barədə yarışın mətbuat xidməti məlumat yayıb. Məlumatda bildirilir ki, yarışın təxirə salınmasına səbəb koronavirusla əlaqədar tətbiq edilən məhdudiyyətlərdir. Turnir 2022-ci il martın 6-na təxirə salınıb.

Qeyd edilib ki, marafonun əvvəlcə martın 7-də təşkili planlaşdırılsa da, sonradan oktyabrın 17-nə təxirə salınmışdı.

Xatırladaq ki, 2020-ci ildə keçirilən Tokio Marafonu azarkeşsiz baş tutub. Yarışa ümumilikdə 200 idmançı qatılıb.



## olimpnews.az - sizin saytınız



## Şahmatçı "Netflix"dən 5 milyon dollar təzminat tələb edir

Şahmat üzrə qadınlar arasında beşinci dünya çempionu Nona Qaprindaşvili "The Queens Gambit" serialını yayımlayan "Netflix"i məhkəməyə verib. İddianın məbləği 5 milyon dollardır. İddiaya filmdə onun barəsində danışılanlar səbəb olub. Belə ki, serialda N.Qaprindaşvilinin heç vaxtı kişilərlə oynamadığı bildirilib. Gürcüstanlı şahmatçının sözlərinə görə, halbuki 1968-ci ilə qədər 10-u qrossmeyster olmaqla, kişilərlə ən azı 59 partiya oyun keçirib.



Həmçinin, Nona Qaprindaşvilinin filmdə gürcü deyil, rus kimi tanıdılması xoşuna gəlməyib.

## İdman nazirinə 6 il həbs cəzası verildi

Keniyanın keçmiş idman naziri Hasan Vario və Rio-2016 Yay Olimpiya Oyunlarındakı nümayəndə heyətinin rəhbəri Stiven Arap Soya hökm oxunub. Hər iki şəxs maliyyə pozuntularına yol verməkdə və olimpiada vaxtı vəzifə səlahiyyətlərindən sui-istifadədə günahkar sayılıblar. Onlar şişirdilmiş qiymətə avia-bilet almaqda, komandaya aidiyyatı olmayan şəxslərin Oyunlara səfərlərini maliyyələşdirməkdə ittiham olunublar. Cinayətkar sxemin həyata keçirilməsi nəticəsində korrupsionerlər dövlət büdcəsindən 500 000 ABŞ dolları mənimsəyiblər.



Vario Keniya hökumətində çalışdıqdan sonra Avstriyaya səfir təyin olunub və 2018-ci ildə həbs olunaraq, istintaq altında saxlanılıb. İndi ona 6 il hökm oxunub. Soy isə 10 il həbs və 10 milyon dollar cərimə məhkum edilib.

Bu hökm ölkə prezidenti Uxuru Kenyattanın apardığı miqyaslı antikorrupsiya kampaniyasının bir hissəsidir. Bu əməliyyatlar nəticəsində onlarla yüksək rütbəli məmur və iri qurumların rəhbərləri saxlanılıb.

Qeyd edək ki, Rio-2016 Yay Olimpiya Oyunları Keniya tarixinə ən uğurlu olimpiada kimi düşüb. Həmin Oyunlarda ölkə atletləri 6 qızıl, 6 gümüş və 1 bürünc medal qazanıblar.

## İngiltərəli məşhur futbolçu vəfat etdi

Futbol üzrə İngiltərə milli komandasının oyunçusu Cimmi Qrivz vəfat edib. Məlumata görə, hücumçu 82 yaşında dünyasını dəyişib.

O, 1966-cı ilin dünya çempionu və 1968-ci ildə Avropa çempionatının bürünc mükafatçısı idi.

Qeyd edək ki, C.Qrivz altı dəfə İngiltərə çempionatının ən yaxşı bombardiri olmaqla rekorda imza atıb.



O, həm də 357 qolla ölkənin yüksək divizionunun ən məhsuldar hücumçusudur. Bununla yanaşı, mərhum 379 qolla "Tottenhem" tarixində öz mövqeyinin ən yaxşısı hesab olunur.

O, İngiltərə millisinin tərkibində 57 oyun keçirib, 44 qol vurub.

Zeynal Abbasov, Sabahəddin Şıxəliyev, Elman Süleymanov, Elbrus Müseyibov, Əşrəf Rzayev, Cavanşir Rufiyev, Zaur Ağakişiyev, Vahid Ağayev, Mətləb Vahidov, Tehran Cəbrayılov, Samiq Namazov, Nizami Rəsulov və Murad Fərzəliyev İlqar Dursunova, anası

**Cəvahir Əsədullah qızı Dursunovanın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər. Allah rəhmət eləsin!

Olimpiya dünyası

Baş redaktor:
M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı 4100 nüsxə ilə çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

E-mail:
olimpiya_dunyasi@mail.ru
Ünvan:
Bakı şəhəri,
2-ci sülh döngəsi, 2a.
Tel.: 564-90-49;
564-74-19